# Onları unutmaq olmaz!

*Yaddaşlarda yaşayan insan*

**Ədəb-ərkan, kamillik, təlim, bilik anlayışlarını ehtiva edən müəllim sözünün özü əlahiddə bir dünyadır. Bu sirli-sehirli aləmin öz səması, günəşi, ayı, sayrışan ulduzları, barı - bəhrəsi, inkişaf qanunauyğunluqları mövcuddur. Pedaqoq - müəllim həm də məbəddir desək, yanılmarıq. Bu məbəddə gələcək vətəndaş, ictimai xadim yetişir. Bəlkə ona görədir ki, müəllim dünyada ən şərəfli peşə sayılır. Müəllim uca Tanrının bizlərə bəxş etdiyi ən böyük nemətlərdən biridir. Müəllim adı həmişə uca tutulub.**

Böyük şairimiz Osman Sarıvəlli deyib ki, "Bədən tərbiyəsi tək bədənin yox, ağlın, şüurun da tərbiyəsidir". Bu yazıda əhəmiyyəti bu iki misra şeir parçasından da aydın görünən idmanı, bədən tərbiyəsini gənc nəslin ruhuna, onların ağlına, şüuruna hopdurmağa çalışan, bir tələbənin deyil, yüzlərlə tələbənin sevimlisi olan, öz yetirmələrinin qəlbində əbədi yaşayan gözəl insan, mehriban və tələbkar müəllim olan Aynal müəllim haqqında danışmaq istəyirəm.

1941-ci il fevral ayının 14-də Quba rayonunun Qımıl kəndində həmişə halal zəhməti üstün tutan, heç kəsdən gücü çatan köməyi əsirgəməyən və böyük hörmət sahibi olan Seyfəlmülk kişinin evində ikinci oğul övladı - Aynal Seyidməmmədovun dünyaya gəlişi ailənin sevincini daha da artırdı. Başqa həmyaşıdları kimi onun da uşaqlığı qaynar və qayğıkeş keçdi. Füsunkar təbiətin, yaşıl meşələrin qoynunda, qıjıltıyla axan Qudyal və Quru çaylarının sərin sahillərində pərvazlanıb boy atan balaca Aynal 1948-ci ildə əlinə çanta götürüb məktəbə getdi və 1958-ci ildə həmin məktəbin 10-cu sinfini müvəffəqiyyətlə bitirdi. Daha sonra iki il Rusiyanın Krasnoyarsk vilayətində həqiqi hərbi xidmətdə oldu.

*Aynal Seyidməmmədov*

hələ orta məktəbdə oxuduğu zaman ibtidai biliklərə yiyələnməklə yanaşı idmanın yüngül atletika növü ilə məşğul olmağa başladı. O, gündəlik məşqlərin sayəsində qısa bir vaxtda yüngül atletikanın texnika və taktikasını mənimsədi. Bu peşəni sevdi və ona ürəkdən bağlandı. İdman onun həyatının mənasına çevrildi. O dövrdə həm orta məktəblər, həm də hərbi hissələr arasında idmanın bütün növləri üzrə yarışlar keçirilərdi. A.Seyidməmmədov orta məktəblər arasında dəfələrlə rayon, daha sonra respublika birinciliyinin qalibi seçilmişdir. Hərbi hissədə xidməti zamanı da karyerasını davam etdirmiş və ümumittifaq yarışlarının mükafatçısı olmuşdur.

Get-gedə idmana olan həvəs Aynalın həyat kredosuna çevrilir, o özünü idmandan kənarda təsəvvür edə bilmir. Ona görə də bu sahədə ali təhsil almaq arzusu ilə sənədlərini 1960-cı ildə Krasnoyarsk Bədən Tərbiyəsi İnstitutuna verir və arzusu reallaşır, o, həmin institutun tələbəsi olmaq səadətini yaşayır. Burada o, məşhur professor və müəllimlərin mühazirələrini dinləməklə, praktik məşğələlərində iştirak etməklə idmanın tarixini və nəzəriyyəsinin incəliklərinə yiyələnir.

*1964-cü ildə*

institutu müvəffəqiyyətlə bitirən Aynal Seyidməmmədov peşəkar güləşçi kimi Moskva, Çeboksarı, Tallin, Perm, Sankt-Peterburq, Daşkənd və digər şəhərlərdə yüngül atletika üzrə yarışlara qatılaraq həmin şəhərlərdən hər dəfə qalib kimi qayıtmışdır.

**İdman sahəsindəki peşəkarlığı, yüngül atletika üzrə I Dərəcəli Hakim adına layiq görülməsilə A.Seyidməmmədovun pedaqoji və idman fəaliyyətində yeni bir mərhələ başlayır. O, 1964 ildən Krasnoyarsk Pedaqoji Universitetində müəllim, 1976-1997- ci illərdə isə doğma vətəninə qayıdaraq N.Tusi adına Azərbaycan Pedaqoji İnstitutunun idman kafedrasında baş müəllim vəzifəsində işləməyə başlayır. Xüsusilə ikinci iş yerində Aynal müəllimin fəaliyyətində yeni bir istiqamət formalaşır, o, fiziki tərbiyənin nəzəri və praktik məsələləri ilə bağlı tədqiqatlar aparmağa başlayır. Respublikamızın tanınmış alimləri - Bədən tərbiyəsi və idman tarixi kafedrasının müdiri Kamal Rzayev, Əməkdar bədən tərbiyəsi və idman xadimi, dosent Züleyxa Hüseynova, gimnastika kafedrasının müdiri, professor Bəhram Nərimanov, güləş kafedrasının müdiri, dosent İsmayıl Abdulqədirov və başqaları ilə çiyin-çiyinə işləyir. Bu illər Aynal müəllim üçün həm pedaqoji, həm də elmi fəaliyyətinin zənginliyi və çoxşaxəliliyi ilə daha yaddaqalan olur. Onun yüngül atletikanın nəzəriyyəsi, tarixi və metodikası ilə bağlı silsilə məqalələri və metodik vəsaitləri nəşr olunur. Müxtəlif elmi - ptaktik konfranslarda və elmi sessiyalarda, institutun elmi sessiyalarında, kafedra iclaslarında yaddaqalan məruzələr edir.**

Aynal müəllim öz sahəsinin tanınmış mütəxəssisi olmaqla yanaşı, həm də çox sadə, səmimi, lakin mənalı bir ömür yaşamışdır. Aldığı dərəcələr, fəxri fərmanlar, mükafatlar onun ömrünün bəzəyi olmuşdur. Aynal müəllim böyük



insan olduğu qədər də pak idi. Onu yaxından tanıyanlar bilirdilər ki, o əxlaqi cəhətdən qüsursuzdur. Ona görə də onun bir pedaqoq kimi təbliğ etdiyi mənəvi xüsusiyyətləri öz davranışı və fəaliyyətində görənlərin Aynal müəllimə rəğbəti birə-beş artır, tələbələri həmişə onun şəxsiyyətini ucadan-uca tuturlar.

Onun müəllimliyində tələbkarlığla qayğı üzvi bağlılıq təşkil edirdi. Dərslərdə çox ciddi görünən Aynal müəllim tələbələri ilə dostluq etməyi bacarır, onlara dəyərli məsləhətlər verir, elm və həyat yollarında onların əsl qayğıkeşi, yolgöstərəni olurdu.

Aynal müəllimin ən maraqlı xüsusiyyətlərindən biri, deyəcəyi hər sözün, atacağı hər bir addımın verə biləcəyi nəticəni əvvəlcədən götür-qoy etməsi idi. O bilirdiki deyilən söz yaydan atılan oxa bənzəyir. Atılan oxu geri qaytarmaq, peşmançılıqdan yaxa qurtarmaq olmur.

Aynal müəllimin fəaliyyəti həmişə planlılığı, məqsədəuyğunluluğu və mütəşəkkilliliyi ilə fərqlənirdi. Peşəsinin qəlbən vurğunu olan Aynal müəllim öz müəllimliyini vətəninə, xalqına xidmət etmək vasitəsinə çevirmişdi. Onun dediyi söz, atdığı addımlar, apardığı dərslər bir pedaqoq kimi cəmiyyət üçün faydalı məqsədlər güdürdü.

*Ömrünün 33 ilini*

müəllim kimi müqəddəs peşəyə bağlamış Aynal Seyidməmmədovun həm həyatı, həm də elmi-pedaqoji fəaliyyəti bir ziyalılıq örnəyi olmuşdur. Həyatın mənasını insanlara xidmətdə görən Aynal müəllim təvazökar, xeyirxah və alicənab insan idi. Onun dost kimi sədaqətinə, insan kimi kamilliyinə, ziyalı kimi alicənablığına, vətəndaş kimi xalqına, vətəninə bağlılığına hamımız şahid idik. Aynal müəllim olduqca sadə, zövqlə geyinən bütöv bir şəxsiyyət idi. Onun insanlarla rəftarında son dərəcə səmimi bir ziyalı mövqeyi formalaşmış, duruşunda - oturuşunda, ədəb-ərkanında gözəl bir müəllim qüruru cəmləşmişdi.

Aynal müəllim doğma yurda, el-obaya, boya-başa çatdığı Qımıl torpağına bağlı insan idi. O, evi, ocağı qədər sevib əzizlədiyi, həvəslə çalışdığı indiki Azərbaycan Dövlət Pedaqoji Universitetini, onun idman kafedrasını özünün əbədi iş yeri sayır, bununla da demək istəyirdi ki, vətəni, doğma torpağı sevmək hər kəsin borcudur.

**Aynal Seyidməmmədovun ən böyük keyfiyyətlərindən biri də çoxlarına nümunə ola biləcək ailə xoşbəxtliyi idi. Aynal müəllim özü həmişə etiraf edirdi ki, həyatda qazandığı uğurlarda sədaqətli ömür-gün yoldaşı Solmaz xanımın böyük payı vardır.**

Ömrünü gələcəyimiz olan gənclərin təlim-tərbiyəsinə həsr etmiş Aynal müəllim yaşasaydı indi onun 80 yaşı olacaqdı. O, bu gün bizimlə bir sırada dayanmasa da hamımız onu yaxşı xatırlayır və unutmuruq.

Etibarlı dost, qayğıkeş ailə başçısı, vətənini, xalqını, dövlətini sevən bir vətəndaş, nəyi isə öyrənmək istəyən, bildiklərini tələbələrinə axıra qədər aydınlaşdırmağı bacaran, kövrək qəlbli ziyalı Aynal Seyidməmmədov 30 iyun 1997-ci ildə cəmi 56 yaşında gözlərini həyata əbədi yumdu. Onu tanıyanlar, tələbələri və dostları həmişə böyük məhəbbətlə xatırlayırlar.

Qara torpağın udduğu ağıl xəzinələrinin qüdrətidir ki, torpağ indi sərvət dolu bir dünyadır. O, insanı yaşadır, və günlərin bir günündə öz qollarını açır və onunla əbədilik qovuşur. Və elə buna görədir ki, torpağa ana torpağ deyirik.

**Şıxəmməd Seyidməmmədov,
ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi**